ŞƏFFAFLIQ AZƏRBAYCAN

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Bakı Ofisi

**Əlaqə:**
Kənan Qasımov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: kanan_q@transparency.az

***MƏTBUAT ÜÇÜN MƏLUMAT***

# Yerli əhali və polis orqanları üçün antikorrupsiya təlimləri keçirilib



23 İyul – "Transparency International" beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin Quba və Şəki mərkəzləri ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsi, habelə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın maarifləndirmə komponenti çərçivəsində mobil treninqlər keçirməkdə davam edir. Bu ay ərzində Oğuz rayonunun Sincan, Xaçmaz, Xaçmazqışlaq, Filfilli, Kərimli, Bucaq, Muxas və Başdaşaqıl kəndlərində, o cümlədən Qusarın Suvacal kəndi və Quba rayonunun polis idarəsində keçirilmiş treninqlər 220 nəfər kənd əhalisini və 76 polis işçisini əhatə edib və şikayəti olan əhaliyə yerində pulsuz hüquqi yardım göstərilib. Maarifləndirmə xarakteri daşıyan təlim zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında məlumat verilib və təşkilatın həyata keçirdiyi layihənin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb. Keçirilmiş təlimlərdə iştirakçılar daha çox bələdiyyə, İcra Hakimiyyəti, polis, Azərsu, ünvanlı sosial yardım, məhkəmə, əmək müfəttişliyi, təhsil sektoru, dövlət qeydiyyat notariat idarələri, dövlət torpaq və xəritəçəkmə komitəsi və bu sahələrdə müşahidə olunan korrupsiya faktları ilə bağlı şikayətləniblər.

*2005-ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin mövcud olan Bakı, Gəncə və Lənkəran mərkəzləri ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), Quba və Şəki mərkəzləri isə ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında fəaliyyət göstərir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün [www.transparency.az](http://www.transparency.az) internet səhifəsinə müraciət edə bilərsiniz.*